# Azərbaycanın tunc dövrü qəbirlərində "Günəş" inancı izləri

**İradə Avşarova**
Bakı Dövlət Universiteti, Azərbaycan

**Açar sözlər:** eneolit, tunc, ölülər kultu, kromlexlər, kurqanlar, şüa, günəş, inanc.

Bəşər tarixi boyu müxtəlif dövrlərdə yaşamış tayfalar arasında axirət dünyası ilə bağlı müəyyən dünyagörüşü və inanclar mövcud olmuşdur. Qədim Şərqdə yaranmış bir çox dövlətlərin (o cümlədən Misir, Mesopotamiya, İran, Çin, Qafqaz və s.) ərazilərində yaşamış tayfaların dini dünyagörüşlərində ölülər kultu geniş yer almışdı. Bu kult Azərbaycanın qədim dövr qəbir abidələrində də izlənilir. Arxeoloji tədqiqatlar nəticəsində müxtəlif dəfn adətləri ilə müşahidə olunan qəbir tiplərinə təsadüf olunur. Bu qəbirlər qədim Azərbaycan tayfalarının dəfn adətlərini qoruyub saxlayan yeganə mənbələrdir. Bu məqalədə əsas məqsəd, eneolit və tunc dövrü tayfalarının dini, mifoloji dünyagörüşlərinə toxunmaqla, dəfn adətlərində yer alan günəş inancını izləməkdən ibarətdir. Mövzu müxtəlif müəlliflər tərəfindən tədqiq olunsa da, dəfn adətlərində yer alan inanclar hələ uzun müddət tədqiqat obyekti olaraq qalacaqdır. Bu problemi aktual edən yeni aşkar olunan qəbir abidələri və artefaktlardır.

Azərbaycanın Tunc dövrü qəbir abidələrində çox geniş yayılmış kultlardan biri ölülər kultudur. Arxeoloji tədqiqatlar eneolit və tunc dövrü tayfaları arasında ibtidai dini təsəvvürlərin ən qədimlərindən sayılan animist baxışların olduğunu müəyyən etmişdir. Animist baxışlara görə insan və heyvan ruhu canlı olub, fövqəltəbii qüdrətə malik idi, narahat ölünün ruhu yaxınlarına, xüsusilə də uşaqlara xətər yetirə bilərdi. Elə həmin səbəbdən də təbiətin qarşısında hələ də aciz olan ibtidai insanlar dünyasını dəyişən adamların ruhunu razı salmaq üçün dəfn zamanı müxtəlif ayinlər yerinə yetirir, qəbirə yemək dolu müxtəlif qablar və əşyalar qoyur, dəbdəbəli dəfn mərasimləri keçirirdilər. Qəbirlərdə aşkar olunan maddi-mədəniyyət nümunələri dövrün insanlarının sosial, iqtisadi, dini, mənəvi və mədəni həyatını öyrənmək baxımından dəyərli mənbələr sayılır. Kainatın və təbiətin müxtəlif qüvvələrini, eləcə də özlərinin dini təsəvvürlərini və inanclarını kosmik aləmlə bağlayan və təsəvvür edən qədim Azərbaycan tayfaları müxtəlif dəfn adətləri və ayinlər yerinə-yetirməklə elə bil ki, təbiət qüvvələri ilə ölmüş insanlar arasında əlaqə yaradırdılar. Arxeoloji qazıntılar bir çox qəbir abidələrində zəngin dəfn mərasimləri haqqında məlumat verir. Həmin məlumatlar bir daha sübut edir ki, Azərbaycanın əkinçi və maldar tayfaları axirət dünyasına inanmışlar. On-

ların dünyagörüşü ilə bağlı yaranan təsəvvürlərində dünyasını dəyişən, həyatı tərk edən insanın ruhu ölümündən sonra da yaşamaqda davam edirdi.

Müxtəlif dini təsəvvürlərin izlərinə Gəncəçay rayonunun qəbir abidələrində də rast gəlinir. Gəncəçay rayonu üçün iki qəbir tipi (kurqanlar və daş qutu qəbirlər) daha çox səciyyəvidir. Kurqanlara Gəncəçay rayonundan qərbdə Şəmkir çay vadisinin düzənlik hissəsində də təsadüf edilir. Cənuba doğru getdikcə rayonun dağlıq hissəsində kurqanlar daş qutu qəbirlərlə əvəz olunur. Kurqanların hündürlüyü adətən 2,5 metrə çatır. Xarici görünüşünə görə kurqanlar yastı-dairəvi, oval və konusvaridirlər. Onlar əsasən qum, daş, daş və qum qarışığından, qum və daş təbəqələri ilə hissə-hissə tökülərək ucaldılmışdı. Bəzi kurqanların yuxarı səthi dairəvi şəkildə daşla döşənmişdir. Burada ölülər dördkünc formalı qəbir kameralarında dəfn edilmişdi. Qəbir kameraları ölü basdırıldıqdan sonra torpaq və çay daşları ilə doldurulur və ağız hissəsi sal daşlar və ya ağac taxtalarla qapanırdı, bəzən qəbirlərin içərisi taxtalarla bir neçə mərtəbəyə bölünür və hər bir mərtəbədə ölü basdırılırdı [6, s. 62-64]. Bu tip qəbir abidələri arasında günəş inancı ilə bağlı dəfn adətlərinə də rast gəlinmişdir.

Göy-Göl rayonundakı kurqanlarda şüa sistemində dəfn mərasimlərinin üç formasına təsadüf edilmişdir: 1) kurqanın şimal-cənub diametri üzərindəki iki nöqtə ətrafında şüa sistemində düzülmüş çox qəbirli kurqanlar; 2) kurqanların şərq-qərb diametri üzərindəki bir nöqtə ətrafında şüa sistemində düzülmüş çox qəbirli kurqanlar; 3) sonuncu kurqan tipinin planlaşdırılmasında qəbirlər yenə də başqa torpaq kurqanlarda olduğu kimi, şüa sistemində yerləşdirilmişdir. 1-ci tip kurqanlarda ümumi torpaq örtüyü altında iki ailənin üzvləri basdırılmışdı. Bu da onu göstərir ki, həmin iki ailə sağlıqlarında da bir damın altında yaşamışlar. Son dərəcə mühüm olan həmin fakt, qədim qəbirlərin müəyyən inkişaf mərhələsində qoşa ailələrin olduğunu söyləməyə əsas verir. Bundan başqa bu fakt, iki nöqtə ətrafında şüa sistemində olan çox qəbirli kurqanları qəbilə quruluşu dövrünə aid etməyə imkan verir. 2-ci tip torpaq kurqanlarda bir nöqtə ətrafında şüa sistemində bir ailənin üzvləri basdırılmışdı. Daşdan qurulan belə kurqanların yarandığı dövrdə qoşa ailə, yəqin ki, hələ başlanğıc halında idi. Bir nöqtə ətrafında düzülmüş çox qəbirli torpaq kurqanlar isə, aydın göstərir ki, keçən müddət ərzində ailə möhkəmlənmiş və həmin kurqanlar qurulan dövrdə ailələrin xüsusi mülkiyyəti olmuşdur. Tək qəbirli torpaq kurqanlar, ümumiyyətlə, ağ inkrustasiyalı gil qablar mədəniyyətindəki təkamülü göstərir və onlar son tunc dövrünün daha yeni yüksək inkişaf mərhələsinə aid edilir [3,s.161]. Maraqlıdır ki, kurqan çölünün lap yaxınlığında iki qədim yaşayış məskəninin xarabalıqları aşkar edilmişdi. Yaşayış məntəqələrindən biri vaxtı ilə Gəncə çayı dərəsində, o birisi isə, qəbirlər olan çölün qərbində, Lüləli dərəsi yaxınlığında salınmışdı.

Birinci yaşayış məntəqəsində bir neçə kiçik tiklilər tədqiq edilmişdi. Evlər yarım qazma tipli olub, çay daşından palçıqla səliqəli şəkildə tikilmişdi. Həmin tikililər bir ailə üçün nəzərdə tutulmuşdu. Onların ətrafına daşdan hasar çəkilmiş həyətyani sahələri var idi. “Uzun evlərdə” daha iri tikililərə rast gəlinir. Həmin tikililər daş arakəsmələrlə ayrı-ayrı kiçik otaqlara bölünmüşdü. Otaqlarda aparılan qazıntı zamanı orada çoxlu insan yaşadığı məlum olmuşdu. Həmin yerdən tapılan saxsı qablar, habelə tunc, sümük və daşdan hazırlanmış əşyalar, göstərir ki, qəbilə evlərində yaşayan adamlar qəbilə kurqanlarında, yəni qəbirlərin sayı birdən artıq olan şüa sistemli böyük kurqanlarda dəfn olunmuşlar. Bu cür tiklilər qəbilə quruluşu dövrünə aid edilir. Həmin yaşayış məntəqəsindən kurqanlardan tapılan əşyalarla həmin yaşayış evlərindən tapılan əşyalar arasında müəyyən əlaqə olması, qəbilə quruluşunun pozulmasını, ondan ayrı-ayrı ailələrin meydana çıxmasını, habelə xüsusi ailə mülkiyyətinin əmələ gəlməsini göstərir [3, s.162- 163].

Təsvir etdiyimiz tikilinin birinci otağında ev kultu əlamətləri aydın görünür. Kulta aid bir sıra əlamətlərdən başqa həmin otaqda bir ocaq yeri qeydə alınmışdır. Ocaqdan yandırılmış insan sümükləri tapılmışdı. Həmin otaqla tədqiq olunan 36 saylı kurqan arasında əlaqənin olduğu şübhəsizdir. O, indiyə qədər öyrənilmiş kurqanlardan onunla fərqlənir ki, başqa kurqanlar kimi relyefin ən yüksək nöqtəsində deyil, aranda yerləşmişdi və başlıca olaraq, həmən yerdə dini ayinlər – tanrıya dua etmək, qurban kəsmək, ölü yandırmaq və s. bu kimi işlər nəticəsində əmələ gəlmişdir [3,s.112]. Məhz günəşə sitayişlə bağlı olaraq, qəbirlərdə şüa tipli dəfn adəti icra olunmuşdu. Kurqanın alt hissəsi daşla hörülmüşdü. Hörülmüş qatın üzərində 1,0 metr qalınlığında kül təbəqəsi var idi. Bu kül təbəqəsində çoxlu miqdarda heyvan sümükləri və 1 saylı yaşayış məntəqəsinin uzun evləri və terrasın üzərindəki qəbilə kurqanları üçün xarakterik olan saxsı qab nümunələri tapılmışdı. Buradan əldə olunan keramika içərisində üç böyük həcmli, qalın divarlı küp var idi. Bu küplərdə yəqin ki, yandırılan meyitlərin qalıqları olmuşdu. Bundan başqa orada son dərəcə maraqlı olan ellips formalı bişmiş qırmızı gildən sarkofaqa rast gəlinmişdi. Həmin sarkofaqın küpəyə oxşar çıxıntısına kül yığılmışdı və ağzı qapaqla örtülmüşdü. Kül təbəqəsinin üstündə inkişaf etmiş tunc dövrünə aid 12 qəbir var idi. Ehtimal ki, bu qəbirlərdəki adamlar tanrılara qurban verilmişdir. Altı adamın skeleti arxası üstə uzadılmış vəziyyətdə idi. Onların üçünün təpə sümüyünün sağ tərəfində damğaya oxşar oval formalı çuxura rast gəlinmişdi. Həmin təbəqədə ev heyvanlarının sümükləri və tunc dövrünün son mərhələsi üçün xarakterik olan qara rəngli gil qablar da tapılmışdı [3, s. 112].

N.İ.Nərimanov yazır ki,Y.N. Hummel Gəncəçay rayonu ərazisində on ilə yaxın qazıntı işləri aparmış və belə nəticəyə gəlmişdir ki, kurqanaltı qəbir-

lərin yerləşməsi zamanı bir nöqtədən müxtəlif istiqamətlərə şüalar aparılmış və bu şüalar üzərində qəbir çuxurları qazılmışdır. Bu qəbir çuxurları elə qazılmışdır ki, S 1 adlanan mərkəz nöqtədən aparılan şüa qəbirlərin ya diaqonalından ya da ortasından keçməlidir. Əgər şüa qəbirin diaqonalı ilə uyğun gəlirsə həmin qəbirdə kişi, qəbirin ortasından keçirsə o qəbirdə qadın dəfn olunmuşdur. Tədqiqatçının dediyinə görə mərkəz nöqtə kurqanın günəşi olmuşdur. Qəbirlərə qoyulan ölülər həmin nöqtəyə çevrilmiş vəziyyətdə basdırılmışdır. İ.Nərimanov "Gəncəçay rayonunun arxeoloji abidələri" monoqrafiyasında Y.İ. Hummelin şüa sisteminin əleyhinə çıxmışdır [6, s.65-73].

Talış zonasının son tunc dövrü daş qutu qəbirlərin kromlexi,şaquli vəziyyətdə dairəvi şəkildə düzülmüş daşlardan ibarətdir. Bu tip qəbir abidələrinə Azərbaycan ərazisində az təsadüf olunur.

Çilaxan 4 saylı daş qutu qəbrində kollektiv dəfn adətinə rast gəlinmişdi. Qəbirin mərkəzi hissəsində düzünə uzadılmış vəziyyətdə gənc oğlana məxsus sümüklər aşkar edilmişdi. Qəbirdə təsadüf olunan digər dörd insana məxsus skeletlər isə ayaqları mərkəzə doğru-şüa şəklində, ortadakı skeletə doğru yönəlmiş vəziyyətdə, bir skelet isə oturmuş vəziyyətdə aşkar edilmişdi. Fərman Mahmudov bu tip dəfnetmə adətinə Qarabağın Dovşanlı (Arçadzor) 2 saylı kurqanında rast gəlindiyini qeyd etmişd [7, s. 92]. Ağdam rayonunun Sarıçoban torpaq kurqanının altında qəbir kamerası və ümumiyyətlə beş qəbirdən ibarət olan bütün kompleks düzgün xaç şəklində tərtib olunmuşdu [4, s. 79]. Göründüyü kimi Göy-Göl, Qarabağ və Talış ərazisində tədqiq olunan kurqan və daş qutu qəbirlərdə təsadüf olunan eyni tip dəfn adəti Y.N. Hummelin tədqiqatlarının və nəticələrinin həqiqətə uyğun olduğunu söyləməyə əsas verir. Şübhəsiz ki, dövrün inanclarına uyğun olaraq Göy-Göl, Qarabağ və Talış ərazisində tədqiq olunan kurqan və daş qutu qəbirdə təsadüf olunan şüa sistemli dəfn adəti günəş ayini ilə bağlı yaranmışdı. Dəfnin bu şəkildə icrası, yəqin ki, ölən şəxsin iki dünya ilə əlaqə yaratması məqsədi daşıyırdı. Göründüyü kimi, "Çərxi-fələk" mifik və dini sistemlərdə ən çox yayılmış simvollardan biri olmaqla yanaşı, dünya xalqları mədəniyyətlərinin bir çoxunun simvolikasında mühüm yerlərdən birini tutur. Hələ, tunc və dəmir dövrlərində Azərbaycan ərazisində yaşamış tayfaların günəşə, aya sitayiş etmələrini Babadərviş, Sarıtəpə yaşayış yerlərində aşkar edilən məbədlər, ocaq qurğuları və divarlardakı "çərxi-fələk" təsvirləri, qəbir kameraları, qaya təsvirləri [5], Xanlar (indiki Göy-Göl rayonu) və Gəncəçay və s. ərazilərdəki kurqanlardan əldə olunmuş gil qablar [8, s.91-99], eləcə də bədii tunc məmulatları [1, s. 84, şək.115, 142, 165] və s. maddi mədəniyyət nümunələri üzərindəki günəş təsvirləri sübut edir. Babadərviş yaşayış yerindən əldə olunan ocaq qurğusu və Günəş tanrısı Mitranın büstünə əsaslanan D. A.

Axundov, Babadərviş yaşayış yerindən aşkar olunan məbədin, (od və günəş tanrısı) Mitra məbədi olduğunu ehtimal etmişdi [2, s.173-174].

Qəbirlərdə təsadüf olunan "çərxi-fələk" təsvirli abidələr ona dəlalət edir ki, qədim dövrlərdə yaşamış insanlar dünyasını dəyişən yaxınlarını mənfi ruhlardan və şər qüvvələrdən qorumaq üçün qəbir abidələrini və qəbirlərə qoyulan əşyaları həmin simvollarla bəzəyirdilər. Onların inanclarında yer almış dini təsəvvürlərə görə, şər qüvvələr işıqdan, günəşin yerdəki atributu olan oddan, ocaqdan qorxurdular, elə həmin səbəbdən də günəşin doğmasını xeyir, qaranlığı isə şər qüvvələrlə bağlayırdılar.

Tədqiqatçıların həmin simvollar haqqında müxtəlif fikirləri mövcuddur. Məsələn; B. B. Piotrovskinin fikrincə, bu işarələr qədim dövrlərdə Cənubi Qafqazda günəşin simvolu olmuşdur [9, s. 90-94]. Şübhəsiz ki, B. B. B. Piotrovskinin fikirlərində həqiqət vardır. Buna baxmayaraq, bunu da qeyd etmək yerinə düşər ki, qədim dövrlərdə Cənubi Qafqazda yaranan həmin kosmoqonik təsəvvürlərin daşıyıcıları məhz Azərbaycan tayfaları olmuşdur. Bunu ərazidə təsadüf olunan od məbədləri və dövrün maddi-mədəniyyətində geniş yer almış müxtəlif tip kosmoqonik təsvirlər və həmin təsvirlərin ifadəsində mühüm rol oynayan, fəlsəfi təsəvvürlərin məhsulu olan əsatirlər onu deməyə imkan verir ki, günəşlə bağlı inanclar Azərbaycan ərazisindən bütün Qafqaza yayılmışdır. Sonda onu diqqətə çatdırmaq istəyirəm ki, məhz bəzi yaşayış yerlərində, o cümlədən Gəncəçay rayonunda ölü yandırma adətinin müşahidə olunması, yaşayış yerlərindən əldə olunan maddi mədəniyyət nümunələrinin, kurqanlardan əldə olunan materiallarla oxşarlığı və üç böyük küpün içərisində yandırılan meyitlərin qalıqları, bundan başqa orada son dərəcə maraqlı olan qırmızı gildən hazırlanmış ellips formalı sarkofaq, həmin sarkofaqın küpəyə oxşar çıxıntısına yığılmış kül, digər kül təbəqəsinin üstündə inkişaf etmiş tunc dövrünə aid 12 qəbir və qəbirlərdə müşahidə olunan şüa sistemli dəfnlər bizə bunu deməyə əsas verir ki, dəfn zamanı yaşayış yerlərində və qəbirlərdə günəşə sitayişlə bağlı müxtəlif mərasim və ayinlər yerinə yetirilmişdir.

**Ədəbiyyat:**

1. Avşarova İradə. Xocalı-Gədəbəy mədəniyyəti tayfalarının bədii tunc məmulatı (e. ə. XIV-VII əsrlər). Bakı, Nurlan, 2007, 190 s.

2.Ахундов Д. А. Архитектура древнего и раннесредневекового Азербайджана. Баку, 1986, 310 с.

3. Гуммель Я. Н. Археологические очерки. Баку, Издательство Аз. ФАН, 1940, 164 с.

4. Джафаров Гидаят. Курганные памятники Гарабаха как ценные источники по изучению древней истории. Azərbaycan arxeologiyası., 2016, cild 19, №2, 2016, s.77-83.

5. Джафарзаде И. М. Гобустан. Наскальные изображения, Баку, Элм, 1973, 347 с.

6. Nərimanov İdeal. Gəncəçay rayonunun arxeoloji abidələri. Bakı, Azərbaycan SSR Elmlər Akademiyasının Nəşriyyatı, 1958, 142 s.

7. Махмудов Фарман. Культура юго-восточного Азербайджана в эпоху бронзы и раннего железа. Баку, 2008, 215 с.

8. ОАК за1903 г. СПб., 1906, 245 с., 7 табл., 406 рис.

9. Пиотровский Б. Б. Археология Закавказья., Ленинград, 1949, 131с.

## Summary

## The traces of “Sun” belief in some Bronze Age graveyards of Azerbaijan



**Irada Avsharova**
Baku State University, Azerbaijan.



Throughout the human history among the tribes living in different times there have been certain beliefs and ideas about the after life. In the religious outlook of the tribes who lived in the territories of most countries emerged in the East, including Egypt, Mesopotamia, Iran, China, the Caucasus and so on. This cult is also observed in ancient monuments of Azerbaijan.

As a result of the archaeological investigations carried out in Azerbaijan, types of graves accompanied with various burial customs were found. These types of graves are the only sources preserving burial traditions of the ancient Azerbaijani tribes. The article expose the religious, mythological outlooks of the Bronze Age tribes, and to trace the Sun worship in burial customs. Although the subject was studied by various authors, beliefs in burial customs have not been a subject of comprehensive research. That's why it can be considered as a pressing problem.


**Keywords:** Bronze, the cult of the dead, cromlech, kurgans, beam, sun, belief.

# Резюме

## Следы культа солнца в погребальных памятниках эпохи бронзы Азербайджана



**Ирада Авшарова**

Бакинский Государственный Университет, Азербайджан.



Целью данной статьи является прослеживание, наряду с религиозными воззрениями у существующих в исследуемую эпоху племён, их мифологическими мироощущениями, культа солнца и связанного с этим культом обрядов в погребальных памятниках.

В истории человечества в различные периоды её развития у многих древних племён существовала вера в загробный мир. В частности, зародившийся в мировоззрении у многих народов восточных стран - в Египте, Месопотамии, Иране, Китае, а также на Кавказе, культ предков получил широкое распространение.

В результате проводимых археологических изысканий на территории Азербайджана было прослежено, что у различных типов погребальных памятников существовали отличия в погребальных обрядах. Указанные погребальные памятники отражают некогда бытовавшие обряды и традиции у носителей культуры этих племен, и представляются основным источником в этом направлении.

Несмотря на то, что данная тема затрагивалась некоторыми исследователями в своих трудах, изучение роли культов в погребальных обрядах до сих пор не было всесторонне освещено. В связи со сказанным следует отметить, что изучение данной темы представляется актуальной.


**Ключевые слова:** энеолит, бронза, культ мёртвых, кромлехи, курганы, луч, солнце, верования.